## Uşaqların əl işlərindən və rəsm əsərlərindən ibarət sərgi açılmışdır



1 iyun 2013-cü il tarixdə Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi Qəbələ Dövlət Rəsm Qalareyasında qalareya işçilərinin köməkliyi ilə məktəblilərin və xüsusi qayğılı uşaqların rəsm əsərlərindən və əl işlərindən ibarət sərgi keçirmişdir.

Sərgidə məktəblilərdən Qadir Möylamovun, Mahmud İbrahimlinin, Qorxmaz Mustafayevin və xüsusi qayğılı uşaqlardan Səkinə İbrahimlinin, Samir Əmirşahlının rəsm əsərləri, Aytən Allahverdiyevanın, Vüsalə Veysəlovanın, Ceyran Süleymanovanın əl işləri nümayiş etdirilmişdir. Sərgidə rayon İcra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, icra aparatının işçiləri, hüquq mühafizə orqanlarının, təhsil, mədəniyyət şöbələrinin rəhbərləri və rayonun digər idarə və təşkilat rəhbərləri iştirak etmişlər.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru R. Mahmudova 1 iyun— Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibətilə sərgi iştirakçılarını təbrik etdi və sərgidə əsərləri nümayiş etdirilən uşaqlar barədə iştirakçılara məlumat verdi.

Sərgidə əsərləri nümayiş etdirilən gənc rəssamlara tədbirin sonunda Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən hədiyyələr təqdim olunmuş, Dövlət İdarələri və İctimai Xidmət isçiləri Həmkarlar İttifaqı Qəbələ rayon Komitəsi tərəfindən gənc rəssamlara maddi yardım edilmişdir.

**Afaq ABDURAHMANOVA,**
**Qəbələ UADM-in metodisti.**

# İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçıları Qəbələdə

***Mayın 30-da Bakıda, Heydər Əliyev Mərkəzində «Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama» devizi altında «Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu» işə başlamışdır.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumun açılışında iştirak etmişdir.***

***Əvvəlcə forumda iştirak edən yüksək səviyyəli qonaqlarla görüşən dövlətimizin başçısı forumun açılışında nitq söyləmişdir.***

***Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Azərbaycanda keçirilməsinin çox əlamətdar hadisə olduğunu qeyd edən Prezident İlham Əliyev tədbir iştirakçılarına uğurlar arzulamışdır. Forumun gündəliyinin çox geniş olduğunu qeyd edən dövlət başçısı onun yüksək səviyyədə başa çatacağına əminliyini bildirmişdir.***



Bakıda keçirilən İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçıları iyunun 1-də Qəbələ rayonunda olmuşlar.

Qonaqlar Qəbələ Beynəlxalq Hava Limanında hörmətlə qarşılanmışlar.

Forumun xarici ölkələrdən olan iştirakçılarına Qəbələnin tarixi, turizm potensialı, rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən müxtəlif layihələr və bütün sahələrdə nəzərə çarpan uğurlar haqqında məlumat verilmişdir.

Rayonla tanışlıq zamanı qonaqlara məlumat verilmişdir ki, bu gün Azərbaycanın sosial-iqtisadi inkişafının bariz nümunəsini Qəbələ rayonunun simasında aydın görmək olar. Rayonda yaradılan yeni istehsal müəssisələri, sənaye və turizm obyektləri Qəbələnin iqtisadi inkişaf dinamikasının artmasında müstəsna rol oynayır. Beynəlxalq və iri miqyaslı tədbirlərin Qəbələdə keçirilməsi bu diyarın füsunkar və ecazkar təbiətə malik olduğunu bir daha təsdiq edir.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinə baş çəkən qonaqlara məlumat verilmişdir ki, 1980-ci ildən fəaliyyət göstərən bu muzeyin əsas fondunda Qəbələnin 2500 illik tarixini əks etdirən 12 mindən çox tarixi və elmi əhəmiyyətə malik eksponat mühafizə olunur. Arxeoloji, etnoqrafik, numizmatik materiallar, xalq tətbiqi sənəti nümunələri, qədim əlyazma və çap məhsulları diqqəti xüsusilə cəlb edir.

Doqquz yüz kvadratmetr ərazisi olan muzeydə 13 ekspozisiya zalı, Heydər Əliyev xatirə guşəsi, şəkil qalereyası, zəngin elmi kitabxana, qədim daş abidələrdən təşkil olunmuş sərgi meydançası vardır.

Qəbələ konserv zavodunda istehsal prosesi ilə yaxından tanış olan forum iştirakçılarına məlumat verilmişdir ki, 12 hektar ərazidə yerləşən müəssisənin istehsal gücünə və texnoloji avadanlığına görə Qafqazda analoqu yoxdur. Zavodda «Tetra Pak» xətti istismara verilmiş, xaricdən gətirilən avadanlıqlar quraşdırılmışdır. Müəssisənin iş prinsipi xammal qəbulundan başlayaraq hazır məhsulun qablaşdırılmasına qədər bütün prosesləri əhatə edir. Ümumilikdə 350 nəfərin çalışdığı müəssisədə 30 çeşiddə meyvə şirəsi, konsentrat, nektar, 12 çeşiddə turşu, tomat, mürəbbə, cem, soyuq çaylar, 15 çeşiddə yarımfabrikat məhsullar hazırlanır. Məhsullar daxili bazara çıxarılmaqla yanaşı, 30-dan çox ölkəyə ixrac edilir.



Sonra forum iştirakçıları Qafqaz Albaniyasının paytaxtı olmuş qədim Qəbələ şəhərinin xarabalıqları ilə tanış olmuşlar. Qonaqlar indiki Çuxur Qəbələ kəndi ərazisində arxeoloji ekspedisiya tərəfindən aşkar edilmiş qədim Qəbələ şəhərinin müdafiə istehkamları, şəhərin su təchizatı, məişət və təsərrüfat tikililəri, müxtəlif maddi-mədəniyyət nümunələri ilə tanış olmuşlar.

Qonaqlar Qəbələyə səfər zamanı «Gilan piano» MMC-nin «Beltmann» piano fabrikinə də baş çəkmişlər. Bildirilmişdir ki, 2009-cu ildən fəaliyyətə başlayan fabrik hazırda dünyada «Beltmann» markalı pianolar istehsal edən yeganə müəssisədir.

Fabrikdə istehsal prosesi ilə tanışlıq zamanı qeyd edilmişdir ki, regionda analoqu olmayan və ən son beynəlxalq standartlara cavab verən bu müəssisə inzibati bina və istehsal sahəsindən ibarətdir. Pianolar sexlərdə yığılaraq xüsusi avadanlıqla təchiz olunmuş altı otaqda sazlanır və köklənir. Fabrikdə ildə 1200-1500 pianonun istehsal edilməsi mümkündür.

Nic qəsəbəsinə səfər edən forum iştirakçıları «Cotari» alban kilsəsi (məbədi) ilə tanış olmuşlar. Qonaqlara məlumat verilmişdir ki, kilsə tarixi baxımdan ən qədim və əhəmiyyətli abidələrdən biridir. Nic qəsəbəsi tolerantlığın kiçik bir modeli hesab edilir. Burada azərbaycanlılar, ləzgilər, udilər mehriban şəkildə, bir yerdə yaşayırlar. Dövlət tərəfindən udilərə öz dilini, dinini, adət-ənənələrini, mədəniyyətini qoruyub saxlamaq və inkişaf etdirmək üçün yüksək şərait yaradılmışdır. Qəsəbədə 3 kilsə, iki məscid vardır. Hər məhəllədə müsəlman və xristianların ziyarət etdikləri 5-7 pir mövcuddur. Altı min əhalisi olan kənddə 3700 udi yaşayır. Qəsəbədə udi lər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar.

Qonaqlar Qəbələyə səfərlərinin sonunda beşulduzlu «Qafqaz Riverside», «Qafqaz Resort», «Qafqaz Sport» otelləri, «Fitnes» istirahət-sağlamlıq mərkəzi, rayonda yaradılmış müasir turizm infrastrukturu, Qəbələnin füsunkar təbiəti ilə də tanış olmuşlar.

Qəbələ ilə tanışlıq, rayonda aparılan tikinti-quruculuq və abadlıq işləri forum iştirakçılarında zəngin təəssürat yaratmışdır. Qonaqlar Azərbaycanın dünyada turizm ölkəsi kimi tanınması üçün böyük potensiala malik olduğunu və bu istiqamətdə böyük işlər görüldüyünü söyləmiş, ölkəmizin sosial-iqtisadi inkişafının, bölgələrdə müasir texnologiyaya əsaslanan infrastrukturun, sürətlə inkişaf edən turizm sektorunun iqtisadiyyatımıza verəcəyi töhfələri yüksək qiymətləndirmiş və Qəbələyə səfərlərindən məmnunluqlarını ifadə etmişlər.